# GƏNCƏ: möhtəşəm layihələr yeni uğurlara yol açır

**Gəncə Şəhər İcra Hakimiyyətində Gəncə şəhərinin 2017-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş geniş hesabat yığıncağı keçirilmişdir. Yığıncaqda Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev qeyd etdi ki, müstəqil Azərbaycanın bölgədə və dünyada layiqli yerini tapması, regional liderliyin təmin edilməsi, iqtisadi sahədə əldə edilən tərəqqi və uğurlar ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi və bu gün Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev tərəfindən əsaslandırılmış və inamla davam etdirilən uzaqgörən siyasətin nəticəsidir.**





Gəncə Şəhər İcra Hakimiyyəti də ölkə Prezidenti cənab İlham Əliyevin siyasi kursunu gündəlik fəaliyyətində rəhbər tutmaqla, şəhərin ictimai-siyasi, sosial-iqtisadi həyatında tərəqqiyə xidmət edən əməli tədbirlər görmüş, müəyyən nailiyyətlər əldə etmişdir. Belə ki, şəhərin inkişafını xarakterizə edən əsas makroiqtisadi göstərici - ümumi daxili məhsul buraxılışının həcmi 2017-ci ilin yanvar-sentyabr aylarında 727,6 milyon manata çatmışdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə onun həcmi 2,1 faiz və ya 14,3 milyon manat artmışdır. Orta hesabla bu dövrdə hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 6,6 faiz artaraq 2,2 min manat təşkil etmişdir.

2017-ci ilin 9 ayı ərzində şəhərdə sənaye xarakterli sektorda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 254 milyon 148 min manatlıq məhsul istehsal olunmuşdur. Şəhərdə sahibkarlıq üçün yaradılan münbit şəraitin nəticəsidir ki, bu gün özəl müəssisələr tərəfindən istehsal olunan məhsulun həcmi ümumi sənaye məhsulunun 71,3 faizini təşkil etmiş, ümumi istehsalın 92,8 faizi sənaye mallarının istehsalı, 7,2 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaranmışdır. 2016-cı ilin 9 ayı ilə müqayisədə "Gəncə Dəyirman" MMC-də, "MKT İstehsalat Kommersiya" MMC-nin "Gəncə Tekstil" filialında, "Gəncə Tekstil" ASC-də, "Azəri Ərəboğlu", "DET.AL Alüminium" MMC-də, "Gəncə Əlvan Metal Emalı" ASC-də, "Asmet LTD" MMC-də, "Maşınqayırma" zavodunda artım müşahidə olunmuşdur. Bu müəssisələr tərəfindən 2016-cı ilin doqquz ayı ilə müqayisədə əlavə olaraq 155 milyon manatdan çox məhsul istehsal olunmuşdur.

Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi iqtisadi siyasət şəhər və rayonları, o cümlədən Gəncə şəhərini davamlı inkişaf edən, məqsədlərinə doğru inamla irəliləyən şəhərə çevirmişdir. Dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq son illərdə Gəncə şəhərində aparılan abadlıq-quruculuq istiqamətində görülən işlər şəhər sakinləri tərəfindən rəğbətlə qarşılanır, əhalinin kommunal və digər sosial sahələrdə mövcud olan bir sıra problemləri müsbət həllini tapır. Belə ki, şəhər ərazisində mərhələli və planlı şəkildə həyata keçirilən genişmiqyaslı abadlıq-quruculuq işləri çərçivəsində mərkəzi prospektlərdə, məhəllədaxili ərazilərdə, yaşayış binalarının fasad və dam örtüklərində, park və meydanlarda, qəsəbələr arası yollarda və digər infrastruktur sahələrində yenidənqurma və əsaslı bərpa işləri aparılmış və bu istiqamətdə işlər bu gün də davam etdirilməkdədir. Möhtərəm Prezident cənab İlham Əliyevin xeyir-duası ilə təməli qoyulmuş Gəncə Dövlət Filarmoniyasının inşası sürətləndirilib və yaxın vaxtlarda istifadəyə verilməsi nəzərdə tutulub. Gəncə şəhəri Nizami prospekti ilə Kimyaçılar küçəsinin kəsişməsində yerləşən 4 ədəd bir bloklu çoxmərtəbəli binalardan on mərtəbəli, 60 mənzilli binanın inşası davam etdirilir. Ümumi sahəsi 5 min 586 kv.metr olan "Majestik" mehmanxanasının və ümumi sahəsi 2 min 500 kv.metr olan, 8 mərtəbəli "Otel Univermaq"ın inşası davam etdirilir. Hacıkənd qəsəbəsində 7 mərtəbəli "ARFA" mehmanxanasının və Nizami Gəncəvi Sələfləri və Xələfləri adlı parkın inşası davam etdirilir. Zərifə Əliyeva küçəsində "Gold-Əminə" hipermarketi, Ş.İ.Xətai prospekti ilə Ü.Hacıbəyli küçəsinin kəsişməsində yeni salınmış "Şah Saray" yaşayış massivində "Baku Electronics" mağazası inşa edilərək əhalinin istifadəsinə verilmişdir. Həmçinin bu ərazidə "Bolmart" mağazalar şəbəkəsinin yeni mağazası fəaliyyət göstərəcəkdir.

Ölkədə sahibkarlığın inkişafına yaradılan etibarlı və dayanıqlı dövlət dəstəyinin bariz göstəricisi kimi, 25 hektar ərazini əhatə edən, miqyasına görə Qafqazın ən böyük ticarət mərkəzlərindən biri hesab edilən "Bazar Store" MMC-nin Qrand Qafqaz Ticarət Kompleksinin tikintisi sürətləndirilmişdir. Kompleksin istifadəyə verilməsi ilə 4 mindən çox mağaza fəaliyyət göstərəcək və 10 min nəfər işlə təmin ediləcəkdir. Heydər Əliyev prospekti ilə Həsən Əliyev küçəsinin kəsişməsində yerləşən Paşa İnşaata məxsus 2014-cü ildə inşasına başlanılmış və ümumi sahəsi 26 min 293 kv.metr, ticarət sahəsi 11 min kv.metr olan "Gəncə Mall" Ticarət Mərkəzinin inşası tamamlanmışdır. Mərkəz 5 mərtəbəlidir və 3 mərtəbədən ibarət yeraltı avtomobil dayanacağı vardır. Burada, restoranlar və sairə ticarət obyektləri yerləşdirilmişdir.

Dövlət başçısı cənab İlham Əliyevin yürütdüyü sosial islahatların əsas istiqamətlərindən biri də əhalinin məşğulluğunun təmin edilməsinə, yeni iş yerlərinin açılmasına yönəldilən tədbirlərin həyata keçirilməsindən ibarətdir.

2017-ci ilin 9 ayı ərzində şəhərimizdə iqtisadi əmək fəaliyyəti ilə məşğul olanların sayı 169 min nəfər təşkil etmişdir ki, bu ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz çoxdur.

2017-ci ilin yanvar-sentyabr aylarında Mərkəzlər tərəfindən göndəriş əsasında 1 min 332 nəfər dövlət, 395 nəfər isə özəl müəssisələrdə işlə təmin edilmişlər. Bu dövr ərzində 288 nəfər işsiz statusu verilmiş işaxtaranlardan 71 nəfərini qadınlar təşkil etmişdir. İşsizliyə görə verilən müavinətin orta məbləği 290 manat təşkil edir. Dövlət başçısının tapşırığına əsasən əhalinin məşğulluğunu təmin etmək məqsədilə cari ilin 9 ayında şəhərdə quruculuq və abadlıq işlərinə 652 nəfər, çoxmənzilli binaların təmirində 307 nəfər, digər idarə və müəssisələrdə 275 nəfər, ümumilikdə 1 min 234 nəfər işlə təmin olunmuşdur.

Şəhərdə azad sahibkarlıq üçün kifayət qədər münbit şərait yaradılması, sərbəst iqtisadi fəaliyyətə geniş imkan verilməsi nəticəsində həm yerli sahibkarlar, həm də xarici investorlar Gəncəyə daha çox maraq göstərirlər. Sahibkarlar tərəfindən şəhərdə yeni ticarət, xidmət, turizm və istirahət obyektlərinin, yüksəkmərtəbəli binaların tikintisi davam etdirilir.

## 2017-ci ilin birinci yarısında Gəncə şəhərində yeni açılmış daimi iş yerləri, faizlə




Enerji təminatı sahəsində abonentlərə yüksək səviyyəli xidmət göstərilməsi istiqamətində müəyyən işlər həyata keçirirlər.

Gəncə Qaz İstismarı Sahəsi tərəfindən təbii qazın qəbulu, nəqli və paylanması, həmçinin istehlakı zamanı yaranan itkilərin azaldılması, fərdi uçotun dəqiq aparılması, qaz təchizatının keyfiyyətcə yaxşılaşdırılması və təhlükəsiz abonentlərə çatdırılması istiqamətində müəyyən məqsədyönlü işlər görülmüşdür.

Gəncə Qaz İstismarı Sahəsi tərəfindən şəhər və rayon qəsəbələrinə daşıyıcı qaz kəmərlərinin çəkilməsi, kəmərlər üzərində quraşdırılmış avadanlıqların yeniləri ilə əvəz edilməsi, mövcud qaz paylayıcı şəbəkələrin, prospekt, küçə və dalanların qaz xətlərinin yenidən qurulması, eləcə də hər bir istehlakçının mənzilinə yeni qaz sayğaclarının quraşdırılması işləri davam etdirilir.

Əhalinin içməli su ilə təminatını yaxşılaşdırmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanları ilə təsdiq edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları çərçivəsində ölkədə həyata keçirilən kompleks tədbirlər nəticəsində bölgələrin içməli su təchizatı və kanalizasiya infrastrukturu müasir tələblərə uyğun olaraq yenidən qurulmuş, əhalinin fasiləsiz içməli su ilə təminatı nəticəsində mühüm nailiyyətlər əldə edilmişdir.

Təhsil müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, yeni məktəb binalarının tikintisi, təhsil islahatlarının həyata keçirilməsi, təlim prosesində müasir təlim üsullarının tətbiqi sahəsi Gəncə Şəhər İcra Hakimiyyətinin daim diqqət mərkəzində saxlanılır. 280 şagird yerlik "İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya"nın (Sanatoriya Tipli İnternat məktəbi) tədris korpusu, yataqxanası və 1 min 76 şagird yerlik Mikayıl Müşfiq adına 14 nömrəli tam orta məktəb əsaslı təmirdən sonra istifadəyə verilmiş, 2 min 140 şagird yerlik 1 nömrəli tam orta məktəbin əsaslı təmir işləri sürətləndirilmiş və məktəbin cari ildə istifadəyə verilməsi nəzərdə tutulur.

Gəncə Şəhər İcra Hakimiyyətinin tabeliyində olan mövcud məktəbəqədər təhsil müəssisələrinin müasir səviyyədə yenidən qurulması, yenilərinin inşası prioritet məsələlərdən biri olmaqla daim diqqət mərkəzində saxlanılır.

Ticarət və Xidmət üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzinin I tədris korpusu və şagird yataqxanası, Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzinin I tədris korpusu və şagird yataqxanası əsaslı təmirdən sonra lazımi avadanlıqlarla təchiz edilərək istifadəyə verilmişdir.

Ticarət və Xidmət üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzinin II tədris korpusunun 2 mərtəbəli yeni binasının inşası başa çatdırılmış, hazırda avadanlıqlarla təchiz olunması işləri aparılır. Şəhərdə yerləşən ümumi təhsil müəssisələrindən 42 məktəbin məzunları 500-700 bal toplayaraq ali məktəblərə qəbul olmuşdur. 2017/2018-ci tədris ilində ümumtəhsil məktəblərini 2 min 308 məzun bitirib. Ali təhsil müəssisələrinə sənəd verənlərin sayı 1 min 819 nəfər olub. Bu isə, ümumilikdə, məktəbi bitirən məzunların 78,8 faizi deməkdir. Bu, ötən ilə nisbətən 4,5 faiz yüksəkdir.

Azərbaycan Dövlət Aqrar Universitetinin 2016-cı ilin 17 fevral tarixində "Tələbə evi" layihəsi üzrə 7 mərtəbəli birinci yataqxanası istifadəyə verilmiş, ikinci yataqxanada son tamamlanma işləri aparılır. Universitetin aqronomluq, torpaqşünaslıq və aqrokimya, kənd təsərrüfatı texnikası, meliorasiya və hidrotexnik qurğular kafedralarında yeni laboratoriyalar quraşdırılmışdır.

Gəncə Dövlət Universitetində maddi-texniki bazanın möhkəmləndirilməsi, laboratoriyaların zənginləşdirilməsi, yenidən qurulması istiqamətdə işlər davam etdirilməkdədir. Universitetin I-IV tədris korpuslarında əsaslı, cari təmir və abadlıq işləri aparılmışdır. Bütün tədris korpuslarının həyətyanı sahələrində abadlıq və quruculuq işləri aparılır.

Gəncə Şəhər İcra Hakimiyyəti əhalinin sağlamlığını, tibb müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılmasını, onların müasir avadanlıqlarla təchiz olunmasını daim diqqət mərkəzində saxlayır. Endokrinoloji Xəstəxana əsaslı təmirdən sonra müasir standartlara cavab verən avadanlıqlarla təchiz olunaraq əhalinin istifadəsinə verilmişdir. Qəbul, 25 çarpayılıq endokrinoloji-terapevtik, 15 çarpayılıq endokrinoloji-cərrahiyyə şöbələri, stomatoloji kabinet, klinik və biokimyəvi laboratoriyadan ibarət olan xəstəxanada "Diabet məktəbi" də fəaliyyət göstərir. Xəstəxanada 14 palata, 2 əməliyyat otağı, 9 həkim otağı, konfrans zalı, inzibati bölmə, mətbəx və s. yardımçı bölmələr əsaslı təmir olunaraq müasir tələblərə cavab verən səviyyəyə çatdırılıb. Burada 54 nəfərdən ibarət tibb və texniki işçi heyəti xəstələrə xidmət göstərəcək.

2017-ci ilin fevral ayının 15-dən may ayının 15-dək şəhər əhalisinin tibbi müayinələrdən keçirilməsi mütəşəkkil təşkil edilmişdir. Ölkə Prezidentinin bu göstərişi şəhər sakinləri tərəfindən dərin minnətdarlıq hissi ilə qarşılanmışdır.

Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə Gəncə Şəhər Körpələr evi və Uşaq Evində bayram tədbirləri, Uşaq Yaradıcılıq Mərkəzində orta məktəb və musiqi məktəblərinin şagirdlərinin konserti və əl işlərindən ibarət sərgi, həmçinin Heydər Əliyev Park-Kompleksində yerləşən "GəncLand" əyləncə və istirahət mərkəzində məktəbəqədər təhsil müəssisələrinin iştirakı ilə konsert və digər bu kimi tədbirlər həyata keçirilmişdir.

2017-ci ilin 9 ayı ərzində Gəncə şəhərinə respublikanın şəhər və rayonlarından gələn yerli turistlərin sayı 22 min 927 nəfər, eləcə də xarici ölkələrdən gələn qonaqların sayı 7 min 800 nəfər olmaqla, 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə uyğun olaraq 3 min 120 nəfər və 1 min 50 nəfər artmışdır.

Azərbaycan gənclərinin cəmiyyətin bütün sahələrində fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmək, ölkədə könüllülük hərəkatını inkişaf etdirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2017-ci il tarixli 3236 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı gənclərə göstərilən diqqət və qayğının bariz nümunəsidir. Gəncə şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən gənclərlə iş sahəsi üzrə 2017-ci ilin 9 ayı ərzində 126 müxtəlif tədbir və layihələr həyata keçirilmişdir. Bu tədbirlərdə 32 mindən çox gənc iştirak etmişdir.

Hesabat dövrü ərzində şəhərimizin idmançıları nəinki şəhərdə keçirilən idman yarışlarında, eləcə də 461 idmançı 42 müxtəlif idman növündə - 32 Respublika, 5 Beynəlxalq, 2 Avropa, 2 Dünya yarışlarında, "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında iştirak etməklə 134 medal qazanmışdır. Onlardan 50-si qızıl, 40-ı gümüş, 44-ü bürünc medal olmuşdur.

Şəhər İcra Hakimiyyətində vətəndaşların müraciətinə həssaslıqla yanaşılır, hər bir müraciətə qanun çərçivəsində baxılır, müntəzəm olaraq müraciətlərin yaranma səbəbləri araşdırılır, müzakirə və təhlillər aparılır.

Ölkə başçısının Nazirlər Kabinetində keçirdiyi iclaslarda uzunmüddətli proqram xarakterli fikirlərinin yerinə yetirilməsi, həmçinin Gəncəyə səfəri zamanı verdiyi tapşırıq və tövsiyələr istiqamətində şəhərimizdə konkret işlər görülür. Cari ilin 9 ayında da Gəncə öz tarixi simasını və qədimliyini qorumaqla yanaşı, dinamik inkişaf yolunu tutaraq qısa zaman kəsiyində simasını gündən-günə dəyişməkdədir.

Çıxışının sonunda, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev tam əminliklə bildirdi ki, şəhərdə gedən sürətli və davamlı inkişaf daha yeni uğurlara yol açacaq və qarşıya qoyulan bütün tapşırıq və tövsiyələr layiqincə yerinə yetiriləcəkdir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**